# Ümumxalq məhəbbəti



**Bu günlər redaksiyamıza müraciət edənlərin sayı xeyli artmışdır. Məktub sahibləri ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü ilə əlaqədar ulu öndərə, onun parlaq ideyalarına sadiqliklərindən, gerçəkləşdirdiyi çoxsaylı möhtəşəm layihələri heyranlıqla, minnətdarlıqla yad etdiklərindən, mədəniyyətimizə göstərdiyi qayğı və diqqətdən söhbət açırlar...**

"Ulu öndərin rayonumuza ayırdığı xüsusi diqqət, qayğı biz sabirabadlıların yaddaşına əbədilik həkk olunub. Belə ki, Sabirabadın yenidən qurulması və inkişafı bu böyük şəxsiyyətin adı ilə bağlıdır. Hələ ilk hakimiyyəti dövründə 14 dəfə Sabirabadda olmuş, hər gəlişi ilə bir çox problemlərin həllinə böyük təkan vermişdir. Onun təşəbbüsü ilə rayona təbii qaz xətti çəkilmiş, əhalini içməli su ilə təmin edən "Qrup su kəməri kompleksi" tikilmiş, Kür çayının üzərində nəhəng körpü salınmış, rabitə evi, mədəniyyət evi, bir-birindən yaraşıqlı inzibati binalar, çoxmərtəbəli yaşayış evləri, məktəblər istifadəyə verilmişdir.

Bütün xalqımız kimi sabirabadlılar da həmişə Heydər Əliyevə hörmət və məhəbbətlə yanaşmışlar. Rayonumuzda Heydər Əliyevin hələ adı sağlığında ikən əbədiləşdirilmişdir. Hazırda Şirvanla Muğanı birləşdirən körpü, Mədəniyyət evi, Sabirabad şəhərinin mərkəzi prospekti, park və xiyabanlar, muzey, yeni məscid ulu öndərin adını daşıyır.

Sabirabad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əhməd Ramazanovun dediklərindən: "Heydər Əliyev mənim xatirimdə bütün azərbaycanlılar kimi Əsl İnsan, Böyük Şəxsiyyət, dünya şöhrətli siyasətçi kimi qalıb. Sabirabadda mədəniyyət evinin tikilməsi barədə fərman imzalayıb, hətta açılış mərasimində də yaxından iştirak edib, xeyir-duasını verib. Bu gün rahat, işıqlı otaqlarda çalışdığımıza görə Ulu öndərə daim duaçıyıq. Kollek-

tivimiz Heydər Əliyevın tutduğu yolu dəstəkləyir, bəyənir, onun davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevə daima dayaq və arxadır..."

Heydər Əliyev 1976-cı ilin 3 sentyabrında Mədəniyyət evinin açılış mərasiminə gəlmiş və rəmzi açarı Mədəniyyət evinin direktoru Ağayev Mirələm Mirsahib oğluna təqdim etmişdir. Ulu öndərimiz 1980-1982-ci illərdə Sabirabad rayonunun pambıq tarlalarında olmuş, Zəminə Aslanova, Fatma Hüseynova və başqa briqadirlərlə görüşmüş, söhbət etmiş, pambıq tarlalarını gəzmişdir. SSRİ Ali Sovetinin deputatı olan Zəminə Aslanovanın təklifini qəbul edərək kolxozçularla nahar süfrəsində əyləşmişdir. Bu gün hər iki sabiq briqadir - Zəminə Aslanova və Fatma Hüseynova Prezident təqaüdçüləridir.

Heydər Əliyev 1981-ci il mayın 4-də "Qrup su kəmərləri kompleksi"nin açılışında olmuş, bu nəhəng qurğunun iş prinsipi barədə sabirabadlılara geniş məlumat vermişdir: "Bu, Muğan üçün mənim hədiyyəmdir, onu qoruyub saxlamağı hamınıza tövsiyə edirəm."

Ulu öndərimiz Nizami Gəncəvi adına məktəb binasının tikilməsinə sərəncam vermiş və özü şəxsən onun açılış mərasimində iştirak etmişdir. Otaqları gəzərkən ədəbiyyat kabinetində əməkdar müəllim Zibeydə Mirzəyeva ilə bir parta arxasında əyləşmiş, üzünü ona tutaraq soruşmuşdur: "Heç siz bu cür geniş, işıqlı sinif otağında dərs keçmisinizmi?" Müəllimə: "Xeyr, yoldaş Əliyev" - deyə cavab verdikdən sonra, ulu öndər qayğılı-qayğılı gülümsünmüşdür:

"Heç mən də belə otaqda dərs keçməmişəm. Gör, indiki uşaqlar necə də xoşbəxtdirlər!" Sonra ulu öndər Nizami Gəncəvi adına 5 saylı orta məktəbin 20 illik yubileyi münasibətilə təbrik teleqramı göndərmiş, Qaratəpə kənd orta məktəbinin tikilməsinə göstəriş vermiş, Zibeydə müəllimə fəxri ad alarkən məktəbin tikinti işləri ilə maraqlanmışdır.

Sabirabad Dövlət Sosial İqtisad Kollecinin dil-ədəbiyyat müəlliməsi Səidə Hüseynovanın xatirələrindən: "1972-ci ildə Heydər Əliyev rayonumuza pambıqçılarla görüşə gəlmişdi. Ulu öndər vaxt tapıb həmin gün - mayın 25-də M.Ə.Sabir adına 1 saylı və Y.Qaqarin adına (indiki N.Nərimanov adına 2 saylı beynəlmiləl məktəbi) məktəblərin "Son zəng" mərasimində də iştirak etdi. O, məzunları xoş sözlərlə təbrik etdikdən sonra bunları söylədi: "Bu gün mənim öz doğma qızımın da bayram mərasimidir. O, məndən bir ata kimi "Son zəng"də iştirak etməyimi xahiş etdi. Amma mən vəzifə borcumu atalıq borcundan üstün tutub sizin şənliyə gəldim..."

**İlahə ŞƏMS**